**“Azərbaycanda uşaqların zorakılıq, cinsi istismar və cinsi sui-istifadədən,**

**o cümlədən rəqəmsal mühitdə müdafiəsi” Layihəsi**

**Layihənin təsviri**

Avropa Şurasının “Azərbaycanda uşaqların zorakılıq, cinsi istismar və sui-istifadədən, o cümlədən rəqəmsal mühitdə qorunması” Layihəsi 1 yanvar 2025-ci ildən etibarən başlanmış iki illik layihədir. Layihənin məqsədi uşaqların onlayn cinsi istismarı və sui-istifadəsi də daxil olmaqla, uşaqlara qarşı zorakılıq əleyhinə mübarizə sahəsində Azərbaycanın cavab tədbirlərini gücləndirməkdən ibarətdir. Bu məqsədin əldə edilməsində Layihənin rəqəmsal mühitdə uşaqların hüquqlarının qorunması və təşviqinə, uşaqların zorakılıqdan, cinsi istismar və sui-istifadədən müdafiəsinə xüsusi diqqət yetirməsi nəzərdə tutulur.

Layihə iki sahəni əhatə edəcək:

1) Uşaqların onlayn cinsi istismar və sui-istifadədən qorunması (OCSEA). Bu komponent milli hüquqi, siyasət çərçivələrinin və təcrübənin təhlili, maarifləndirmə, təlim, təlimatların və qaydaların hazırlanması da daxil olmaqla, rəqəmsal mühitdə uşaq hüquqlarına hörmət, onların müdafiəsi və həyata keçirilməsinə dair Avropa Şurasının Təlimatlarının icrasına dəstək tədbirlərini nəzərdə tutur.

2) Uşaqların zorakılıqdan, o cümlədən cinsi istismardan və cinsi sui-istifadədən müdafiəsi. Bu komponentə ölkədə uşaq qayğı xidmətlərinin müstəqil monitorinqinin gücləndirilməsi üzrə fəaliyyətlər də daxildir. Uşaqlara qarşı zorakılıq ilə mübarizə sahəsində milli proqramların həyata keçirilməsi üçün milli hakimiyyət orqanlarına dəstək göstərilməsi və maarifləndirmə tədbirləri nəzərdə tutulur.

Layihə Avropa Şurasının büdcəsi hesabına maliyyələşdirilir. Layihənin ümumi büdcəsi 428 000 avrodur.

**Əsaslandırma**

Layihə Avropa Şurasının Azərbaycan üzrə 2022-2025-ci illər üzrə Fəaliyyət Planı çərçivəsində həyata keçirilir və Fəaliyyət Planında uşaq hüquqlarına dair hissədə qeyd olunmuş əməkdaşlıq üçün strateji prioritetlərə uyğundur. Layihə Fəaliyyət Planında qeyd olunan aşağıdakı gözlənilən nəticələrə töhfə verəcək:

- Uşaqların həm onlayn, həm də oflayn mühitdə zorakılıqdan, cinsi istismardan və cinsi sui-istifadədən qorunması və müdafiəsi üçün strategiyalar tərtib edilir və həyata keçirilir;

- Uşaqların cinsi istismarı və sui-istifadəsi ilə mübarizə sahəsində mütəxəssislərin bilik və bacarıqları gücləndirilir;

- Lanzarote Konvensiyası haqqında ictimaiyyətin məlumatlılığı artırılır.

**Layihə çərçivəsində milli tərəfdaş qurumlara aşağıdakılar daxildir:** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi; Daxili İşlər Nazirliyi; İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman); Baş Prokurorluq; Ədliyyə Nazirliyi; Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi; Elm və Təhsil Nazirliyi; Səhiyyə Nazirliyi; Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi.

**Layihənin hədəf qrupları** aşağıdakılardan ibarətdir: Azərbaycanda ədliyyə sahəsində çalışanlar; təlim akademiyaları; monitorinq orqanlarının əməkdaşları; müəllimlər/sosial işçilər/tibb işçiləri; vətəndaş cəmiyyəti.

**Yekun benefisiarlar (faydalanlar)**: uşaqlar, ailələr və bütövlükdə cəmiyyətdir.

Avropa Şurasının uşaq hüquqları ilə bağlı fəaliyyəti haqqında ətraflı məlumat üçün bu veb-səhifəyə nəzər sala bilərsiniz: Uşaq Hüquqları Bölməsi .